# Vaqif Poeziya Günləri ömrümüzə qızıl hərflərlə yazıldı

**Şuşa şəhəri, 29-31 avqust Vaqif Poeziya Günləri artıq təqvimin yeni səhifələrilə əvəz olundu, yaddaşlara köçdü. Səsimiz, sözümüz, ədəbiyyatımız dünyada görünməmiş 44 günlük istiqlal döyüşlərinin tarixi anlarını yaşadı, vətəndaşlıq vəzifəsini bir daha nümayiş etdirdi.**



Şuşa qədim Azərbaycan şəhəridir. Dağlar qoynunda taleyi, tarixi olan şəhərdir. O havanın, o suyun, o sirli-sehirli təbiətin yetişdirdiyi şəxsiyyətlər də əvəzsizdir. Millətin mənəvi sərvəti, torpağın zənginliyidir.

Mən taleyimə, həyatın özünə minnətdaram ki, yaşayıb bu tarixi günləri, xalqımın qəhrəmanlığının, ordumuzun yenilməzliyinin şahidi oldum. Şuşaya gedən bu dağ yolu, bu "Zəfər yolu" yaşamağa, yaratmağa çağırışdır! Unudulmaz Ulu Öndərin 1982-ci il yanvarın 14-də, o qarlı, şaxtalı gündə indiki bu Vaqif abidəsi önündə şairlərə, incəsənət xadimlərinə bir-bir söz verməsi, onların həyəcanlı vətənpərvər çıxışları indiki kimi yadımdadır. Biz elə bilirdik ki, göydən çiçək yağır, çünki əhvali-ruhiyyəmiz çox yüksək idi. Qarabağda qar yağırdı - Qarabağda ağ gecəydi. Hamı bir-birini görür, sevincini paylaşırdı.

Ulu Öndər belə tarixi tədbirlə millətin özünü də özünə tanıdır, tarixdə yeri olan, misilsiz yaradıcılıq ənənəsi ilə fərqlənən bir xalq olduğunu, bu danılmaz həqiqəti dünya xalqlarına da elan edir, onları da belə görüşlərə dəvət edirdi.

Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev Vaqif Poeziya Günlərinin açılışındakı tarixi çıxışında xatırladı ki, o vaxt Ulu Öndərin 59 yaşı var idi. Məlum oldu ki, mənfur düşmənlərimizin uçurub dağıtdığı Vaqifin abidəsini yenidən eyni şəkildə bərpa etdirən Ali Baş Komandanın da yaşı 59-dur! Abidənin önündə, atası Heydər Əliyevin dayandığı yerdə qürurla dayanıb poeziya iştirakçılarına müraciət edirdi.

O vaxt İlham Əliyevin 20-21 yaşı olardı. Mərhum anası Zərifə xanım da oradaydı... O vaxt heç ağlımıza da gəlməzdi ki, dünya dəyişəcək, bizim gözümüzün qabağında böyüyüb ərsəyə çatan bu gənc yeganə ağır problemimizin həlli üçün 44 günlük İstiqlal müharibəsinə başlayacaq.

Sən demə, işğal edilmiş torpaqlarımızın ağır taleyi, yüz minlərlə qaçqının, köçkünün dözülməz mənəvi sıxıntıları onun yuxusuz keçirdiyi gecələrdə səbirlə, təmkinlə, siyasi dünyagörüşlə ölçülüb-biçilirmiş.

Nə Beynəlxalq Millətlər Təşkilatının işğal edilmiş torpaqlarımızın qeyd-şərtsiz azad olunması barədə qərarlarından, nə ATƏT-in Minsk qrupu deyilən hiyləgər gəliş-gedişlərindən yaramıza bir məlhəm olmadı.

Cənab Ali Baş Komandan öz xalqına arxalandı, ona inandı, güclü ordusunu yaratdı, fəxrlə "Bir millət, iki dövlət" dediyimiz türk qardaşlarımızla məsləhətləşdi. Türkiyə Respublikasının Prezidenti, dostu və qardaşı Rəcəb Tayyib Ərdoğan da Ulu Öndərin fikirlərini təsdiq etdi. "Türkiyə və Azərbaycan keçmişi bir, gələcəyi bir, dili bir, dini bir iki qardaş dövlətdir" dedi. Biz yaradıcı ziyalılar bu unudulmaz günlərin canlı şahidləriyik.

Vaqif Poeziya Günləri hər birimizin tərcümeyi-halına qızıl xətlərlə yazıldı.

Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır! Ən müasir üslubda tikilmiş mehmanxanalar, mədəniyyət ocaqları, məscidlər, inzibati mərkəzlər, beynəlxalq tədbirlər və s. Şuşanın bəzəyi olacaq.

Şuşadan şuşalıları, qəhrəman xalqımızı, onun şərəfini qoruyan ordumuzu, şəhid ailələrimizi alqışladım, əziz qazilərimizə cansağlığı, gümrahlıq dilədim...

Deyiləsi, yazılası sözümüz çoxdur!

Cənab Ali Baş Komandana, əziz Mehriban xanıma vətənimizin sabahı naminə cansağlığı, səadət arzulayıram. Yaşayın, Sizin haqqınız var!

"Qarabağ - Azərbaycandır!"
Qarabağnaməm - İlhamdır!

***Nəriman HƏSƏNZADƏ,***
***Xalq şairi***

Azərbaycan.- 2021.- 5 sentyabr.- S.3.